

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 187 (21.088)

1 oktyabr 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 30 sentyabr tarixli sərəncamları ilə Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə bir qrup təhsil işçisi təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının təhsil işçiləri də var:

**“Əməkdar müəllim” fəxri adı ilə**

Abbasova Gülarə İslam qızı
Cəfərov Həsən Elbəyi oğlu
Hacıyev Əzim Hüseyn oğlu
Həsənov Rzaqulu Həsən oğlu

**“Tərəqqi” medalı ilə**

Əliyeva Qəmər Nəbi qızı
Fətəliyev Əli Fətəli oğlu
Sadiqova Xalidə Rza qızı
Salmanova Ruqiyyə Murad qızı

## Dövlət proqramının icrası ilə əlaqədar kurs təşkil edilib



***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində muxtar respublikada fəaliyyət göstərən məktəbəqədər müəssisələrin metodist və tərbiyəçi-müəllimlərinin iştirakı ilə kurs təşkil edilib.***

Tədbiri komitənin sədri Ramilə Seyidova açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı” Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin də qarşısında bir sıra vəzifələr qoyub. Bu baxımdan komitə aidiyyəti təşkilatlarla birgə məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkilinə məsul işçilərin bu sahədə peşəkarlıq səviyyəsinin artırılması məqsədilə rübdə bir dəfə belə kurslar təşkil edir. Sözsüz ki, belə kursların təşkil olunması muxtar respublikada məktəbəqədəryaşlı sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının qorunmasına xidmət edir.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli çıxış edərək vurğulayıb ki, adıçəkilən dövlət proqramı muxtar respublikada fəaliyyət göstərən məktəbəqədər müəssisələr qarşısında yeni vəzifələr qoyur. Bu vəzifələrin uğurlu icrası sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbində və cəmiyyətə layiqli vətəndaş kimi yetişmələrində mühüm rol oynayacaq. Məktəbəqədər təhsil müəssisələrində çalışan metodist, tərbiyəçi-müəllimlər uşaqların, o cümlədən sağlamlıq imkanları məhdud uşaqların valideynləri ilə sıx əlaqə saxlamalı, bu qəbildən olan uşaqların cəmiyyətə inteqrasiyasına daha çox səy göstərməlidirlər.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, onlara əyani vəsaitlər paylanılıb.

## Naxçıvan Muxtar Respublikasının 90 illiyi ilə bağlı elmi-praktik konfrans keçirilib





***Sentyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) “Naxçıvan Muxtar Respublikası 90: innovativ, davamlı inkişaf modeli” mövzusunda elmi-praktik konfrans keçirilib.***

AzərTAc xəbər verir ki, konfrans Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında” 2014-cü il 14 yanvar tarixli Sərəncamının icrasını rəhbər tutaraq təşkil olunub.

Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov konfransı açaraq Azərbaycanın keçdiyi inkişaf yolundan, ölkəmizdə bütün sahələrdə əldə olunan uğurlardan, qədim tarixə malik Naxçıvanın müstəqil Azərbaycan Respublikasının qurulmasında və inkişafında oynadığı roldan danışıb. Rektor qeyd edib ki, Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli yol qət edib.

Sonra Naxçıvanın 90 illik tarixi, muxtar respublikanın inkişaf yolundan bəhs edən videoçarx nümayiş olunub.

Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov tədbirdə “Naxçıvan 90: mədəni, iqtisadi, sosial dirçəliş” mövzusunda məruzə ilə çıxış edib. F.Heydərov bildirib ki, çoxəsrlik dövlətçilik ənənələri olan Naxçıvan həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşadıb, yetirdiyi çoxlu sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatına əvəzsiz töhfələr verib. Naxçıvan eyni zamanda Azərbaycan xalqına böyük şəxsiyyət, ulu öndər Heydər Əliyevi bəxş edib.

Naxçıvanın müasir inkişafının ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu deyən F.Heydərov vurğulayıb ki, ümummilli lider fəaliyyətinin bütün dövrlərində Naxçıvana diqqət və qayğısını əsirgəməyib. Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət nəticəsində Azərbaycan çox böyük uğurlar əldə edib. Buraya, təbii ki, Naxçıvanın da dinamik inkişafını əlavə etmək lazımdır. F.Heydərov muxtar respublikanın sənaye, ixrac potensialından, həyata keçirilən uğurlu infrastruktur layihələrindən söhbət açıb.

“Azərbaycan dövlətçiliyinin tarixində Naxçıvanın muxtariyyətinin rolu” mövzusunda məruzə ilə çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli deyib ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası tarixən çox mürəkkəb və keşməkeşli inkişaf yolu keçib. Tarix boyu Naxçıvan müxtəlif imperiyaların maraq dairəsində olsa da, heç bir işğalçı ordu naxçıvanlıların iradəsini qıra bilməyib. Ölkəmizin dövlətçilik tarixində mühüm rol oynayan Naxçıvanın muxtariyyət statusu ötən əsrin 90-cı illərində Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizə dövründə mühüm mərhələ təşkil edib. Muxtariyyət statusu bölgənin tarixi taleyində əhəmiyyətli rol oynayıb, təhlükəsizliyin təmin olunmasında vacib amil kimi çıxış edib.

Bildirilib ki, Naxçıvan gündən-günə gözəlləşir, abadlaşır, inkişaf edir, müasir şəhərə çevrilir. Naxçıvan Şərq ağırlıqlı Qərb düşüncə və mədəniyyətini özündə əks etdirən bir diyardır.

Konfransda həmçinin AMEA Naxçıvan Bölməsinin sədri, akademik, Milli Məclisin deputatı İsmayıl Hacıyev “Naxçıvanın muxtariyyət statusu”, Dövlət İdarəçilik Akademiyasının elmi təşkilat şöbəsinin müdiri Rəcəb Rəhimli “Naxçıvan Muxtar Respublikasının səmərəli idarəçilik sistemi davamlı inkişafın təminatçısıdır”, Milli Məclisin deputatı, DİA-nın Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının professoru Musa Qasımlı “Naxçıvanlıların ərazi bütövlüyü uğrunda mübarizəsi (1918-1920)” mövzularında məruzələrlə çıxış ediblər.

## Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması mərasimi

***Sentyabrın 30-da “N” hərbi hissədə müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması mərasimi keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.***

“Azərbaycan Respublikası vətəndaşlarının 2014-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 10 sentyabr 2014-cü il tarixli Sərəncamına əsasən, hərbi xidmətdən ehtiyata buraxılan hərbi qulluqçuların buraxılış mərasimini “N” hərbi hissənin zabiti, polkovnik-leytenant Mirqiyas Rüstəmov açıb.

Əlahiddə Ümumqoşun Ordusu komandanının müavini, general-mayor Vasif Kazımov müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxılan hərbi qulluqçuların muxtar respublikamızın müdafiəsində cəsarətlə dayandıqlarını bildirib, onlara gələcək işlərində müvəffəqiyyətlər arzulayıb.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli, Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini Mirməcid Seyidov, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini Hacıqadir Qədirzadə çıxış edərək ehtiyata buraxılan hərbi qulluqçuları təbrik ediblər. Çıxışlarda bildirilib ki, ehtiyata buraxılan gənclər Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalaraq ölkəmizin ərazi bütövlüyünün qorunması, muxtar respublikamızın təhlükəsizliyinin təmin edilməsi və düşmən təxribatlarının qarşısının alınmasında öz vəzifə borclarını şərəf və vicdanla yerinə yetiriblər. Ancaq unutmamalıyıq ki, torpaqlarımızın bir hissəsi düşmən tapdağı altındadır. Bizim ən böyük vəzifəmiz bu torpaqları işğaldan azad etməkdir. Ali Baş Komandan cənab İlham Əliyev bu yolda qətiyyətli addımlar atır. Hər bir Azərbaycan vətəndaşı fəxr edir ki, onun qətiyyətli Prezidenti, qüdrətli dövləti və güclü ordusu var.



Sonra ehtiyata buraxılan hərbi qulluqçulara hərbi biletlər təqdim olunub.

Tədbirin bədii hissəsində isə Naxçıvan Muxtar Respublikasının yaradıcı kollektivləri hərbi qulluqçular qarşısında konsert proqramı ilə çıxış ediblər.

**Xəbərlər şöbəsi**

## Ordubadda Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin səyyar kollegiya iclası keçirilib

***Sentyabrın 30-da Ordubad Rayon Mərkəzi Xəstəxanasında Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin səyyar kollegiya iclası keçirilib.***

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov bildirib ki, bu gün əhalinin sağlamlığının qorunması, səhiyyə xidməti səviyyəsinin daha da yaxşılaşdırılması, yeni səhiyyə müəssisələrinin istifadəyə verilməsi muxtar respublikada uğurla həyata keçirilən sosial-iqtisadi siyasətin mühüm istiqamətlərindən biridir. Tikilən yeni xəstəxanaların, həkim ambulatoriyalarının, feldşer-mama məntəqələrinin müasir tibbi avadanlıqlarla təchiz edilməsi əhalinin sağlamlığının qorunması işində əsaslı dönüş yaradıb. Səhiyyə müəssisələrində keyfiyyətli dərman və tibbi preparatlarla təchizat yaxşılaşdırılıb, ixtisaslı kadrların hazırlanması, əhali arasında yoluxucu xəstəliklərin profilaktikası, insanların sağlamlığının qorunması prioritet vəzifəyə çevrilib.

Bu vəzifələrin Ordubadda da layiqincə yerinə yetirilməsi üçün lazımi şəraitin yaradıldığını bildirən nazir səhiyyə sahəsində aparılan quruculuq işləri, həyata keçirilən islahatlar nəticəsində xəstəliklərdən ölüm göstəricilərinin aşağı düşdüyünü, xroniki xəstələrin həyat keyfiyyətinin yaxşılaşdığını vurğulayıb. Rayonun səhiyyə sistemində uğurlarla yanaşı, problemlərin, müəyyən neqativ halların da olduğunu diqqətə çatdıran nazir tibb işçilərini insanlarla münasibətdə diqqətli olmağa çağırıb.

Sonra Ordubad Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Elmar Zeynalov, Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin müalicə işləri üzrə baş həkim müavini Nəzakət Quliyeva, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsinin baş məsləhətçi-epidemioloqu Zülfiyyə Həsənova, baş məsləhətçi-pediatrı İbrahim Ağayev çıxış edərək 2014-cü ilin ilk 8 ayı ərzində Ordubad rayonunda əhaliyə göstərilən tibbi xidmətin, muxtar respublika tibb müəssisələrində kəskin bağırsaq infeksiyalarına qarşı görülən profilaktik və Ordubad rayonunda yoluxucu xəstəliklərə qarşı aparılan əks-epidemik tədbirlərin vəziyyəti barədə məruzələr ediblər.

Kollegiya iclasında Ordubad rayonunda cərrahi xidmətin vəziyyəti, Naxçıvan şəhərində özəl “Profilaktik təbabət kabinəsi”nin fəaliyyətinin dayandırılması, kesar əməliyyatı, QİÇS Mərkəzində aparılan müayinələrin nəticələri, DOTS proqramı üzrə vərəm xəstələrinin aşkarlanması, həkim briqadalarının fəaliyyəti və digər məsələlər barədə məlumatlar verilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin ”Ordubad rayonunda əhaliyə göstərilən tibbi xidmətin daha da yaxşılaşdırılması haqqında” kollegiya qərarı qəbul olunub, ayrı-ayrı sahələrdə mövcud nöqsanların aradan qaldırılması üçün üç ay vaxt verilib.

Kollegiya iclasına səhiyyə naziri Niyazi Novruzov yekun vurub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

1 oktyabr prokurorluq işçilərinin peşə bayramıdır

# Prokurorluq orqanları dövlətçilik maraqlarına, insan hüquq və azadlıqlarının müdafiəsinə xidmət edir

***Ümummilli lider Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamına əsasən, hər il oktyabr ayının 1-i “Prokurorluq işçilərinin peşə bayramı günü” kimi qeyd olunur. Peşə bayramı gününün təsis edilməsi prokurorluq orqanlarına böyük qayğının ifadəsi olmaqla yanaşı, həm də prokurorluq işçilərinin fəaliyyətinə verilən qiymət kimi əhəmiyyətlidir.***



Naxçıvan Muxtar Respublikası Prokurorluğunun inzibati binası

Azərbaycan prokurorluq orqanlarının əsasının 1918-ci il oktyabrın 1-də qoyulmasına baxmayaraq, onun dövlət orqanı kimi formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1993-cü ildə Azərbaycanda ali hakimiyyətə qayıdışından sonra respublikamızda qanunun aliliyi təmin olunmuş, vətəndaşların hüquq və azadlıqlarının yüksək səviyyədə müdafiəsi mühüm prinsip kimi elan edilmişdir. Bu tədbirlərin tərkib hissəsi kimi 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaratmışdır.

Ulu öndərimiz deyirdi ki: ***“Mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram”.*** Böyük dövlət xadiminin rəhbərliyi altında prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur. Qarşıda duran bu və digər məqsədlərin həyata keçirilməsi baxımından 1999-cu il 7 dekabr tarixdə qəbul olunmuş “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanunu müstəsna əhəmiyyət daşıyır. Bu qanun prokurorluğun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılması baxımından hüquqi zəmin formalaşdırmışdır. “Prokurorluq orqanlarında qulluqkeçmə haqqında” Azərbaycan Respublikası Qanununun, “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında” Əsasnamənin və digər normativ-hüquqi aktların təsdiq edilməsi isə prokurorluq orqanlarının fəaliyyətində hüquqi tənzimlənmə prosesini yeni mərhələyə yüksəltmişdir.

Ulu öndər Heydər Əliyevin prokurorluq işçilərinə ünvanlanmış dəyərli tövsiyələri və prokurorluq peşəsinə verdiyi qiymət hər bir əməkdaşın xalqına və dövlətinə sədaqət hissini gücləndirməklə böyük ruh yüksəkliyi yaratmışdır. Ümummilli liderin ***“Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edirəm ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız”*** sözlərini prokurorluq işçiləri öz fəaliyyətlərində əsas istiqamət kimi götürürlər.

Bu gün ölkəmizdə həyata keçirilən ardıcıl məhkəmə-hüquq islahatları hüquq sisteminin demokratik standartlara cavab verən səviyyədə formalaşmasına, insan hüquq və azadlıqlarının daha mötəbər formada qorunmasına, o cümlədən prokurorluq orqanlarının tam yeniləşərək müasir məzmunlu sivil bir orqana çevrilməsinə zəmin yaratmışdır. Ulu öndərimizin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir. Dövlət başçısı prokurorluq orqanlarının inkişafını həm də peşəkar prokurorluq əməkdaşlarının hazırlanmasından asılı olduğunu bildirərək demişdir: ***“Hazırda prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durur. Əsas məqsədimiz prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır”.***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 27 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı”nın həyata keçirilməsi nəticəsində hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təşkili, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən istifadə edilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması sahəsində ciddi uğurlar əldə edilmişdir. Dövlət proqramının icrası üzrə prokurorluğun fəaliyyətinin bütün sahələrini əhatə edən çoxsaylı və əhəmiyyətli tədbirlər həyata keçirilməklə əsaslı təkmilləşməyə və müasirləşməyə nail olunmuşdur.

Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları da həmişə öz üzərində yüksək dövlət qayğısını hiss etmiş, muxtar respublika prokurorluğu və tabe rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmışdır. 2006-cı ildə Şahbuz və Culfa Rayon prokurorluqları üçün müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Muxtar respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət göstərilir. Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında” 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuş, Ordubad, Kəngərli və Sədərək Rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, Şərur Rayon Prokurorluğunun inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Prokurorluğu mərkəzi aparatının inzibati binası əsaslı yenidənqurmadan sonra müasir texniki vasitə və kriminalist avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. Prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər 2012-ci ildə də davam etdirilmiş, Naxçıvan Şəhər və Babək Rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tövsiyə və tapşırıqlarına uyğun olaraq, cinayət hadisələrinin qarşısının alınması üçün profilaktik tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, muxtar respublika cinayətkarlığın səviyyəsi baxımından ən stabil regiona çevrilmiş, cinayət hadisələrinin sayı dəfələrlə azalmışdır. Bu gün muxtar respublikanın prokurorluq orqanları profilaktik tədbirlərin təsirliliyinin artırılmasını diqqət mərkəzində saxlayırlar. Çünki demokratik dövlət quruculuğunda insanların hərtərəfli hüquqi düşüncəyə və hüquq mədəniyyətinə malik olmaları əsas şərtlərdəndir. Hüquq maarifinin yüksək səviyyədə olmasını muxtar respublika prokurorluğunun əməkdaşları özləri üçün əsas vəzifə hesab edərək bu istiqamətdə işlərini günün tələbləri səviyyəsində qurmağa çalışırlar.

Prokurorluq orqanlarına işə qəbulun müsabiqə qaydasında keçirilməsi prokurorluğun kadr tərkibinin savadlı hüquqşünaslar hesabına komplektləşdirilməsi üçün ciddi zəmin yaratmışdır. Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqələrin keçirilməsi qaydalarına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna Naxçıvan Muxtar Respublikası ərazisində yaşayış yeri üzrə qeydiyyata alınmış şəxsləri prokurorluq orqanlarına işə qəbul etmək səlahiyyəti verilmişdir. Bu səlahiyyətdən istifadə edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğunda aşkarlıq və şəffaflıq şəraitində test imtahanları keçirilmiş və nəticədə, gənc hüquqşünaslar prokurorluq orqanlarına işə qəbul olunmuşlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Müstəqil dövlətin əsas sütunu onun hüquq-mühafizə orqanlarıdır. Hər bir ölkənin ümumi sabitliyi, sosial-iqtisadi inkişafı, ilk növbədə, həmin ölkənin hüquq-mühafizə orqanlarının fəaliyyətindən asılıdır. Ona görə də bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə və maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi diqqət yetirilir”.***

*Bu qayğını daim öz üzərlərində hiss edən prokurorluq orqanlarının əməkdaşları bundan sonra da qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsində səylə çalışacaqlar.*

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

1 oktyabr Beynəlxalq Ahıllar Günüdür

# Muxtar respublikada ahıl vətəndaşlara davamlı dövlət qayğısı göstərilir

***Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 1992-ci ildə ahılların müdafiəsi ilə bağlı qəbul etdiyi qətnaməyə uyğun olaraq, ahılların sosial problemlərini öyrənmək və ictimaiyyətin diqqətini onların həllinə yönəltmək üçün hər il oktyabrın 1-i dünyada “Beynəlxalq Ahıllar Günü” kimi qeyd olunur.***

Dünyada mövcud olan müxtəlif xalqların, mədəniyyətlərin, sivilizasiyaların hər biri özünəməxsus adət-ənənələri ilə fərqlənir. Lakin dünyada bu müxtəlifliyi ortaq məxrəcə gətirən bir neçə prinsip də mövcuddur. Belə humanist prinsiplərdən biri ahıl və qoca insanlara hörmət və qayğıdır. Çünki ahıl insan hər bir ailənin möhkəmliyi, dayağıdır. Yaşlı insanların həyat təcrübəsindən, bilik və bacarıqlarından bəhrələnmək nəsillər arasında körpü yaratmaq, varislik əlaqəsini bərpa etmək baxımından çox zəruridir. Bu mənada cəmiyyət üçün ahıl insan əvəzolunmazdır. Buna görə də BMT-nin İnkişaf Proqramında ahıllar problemi hər zaman geniş yer almışdır. 2002-ci ildə İspaniyanın Madrid şəhərində ahıllar üzrə II Ümumdünya Məclisinin keçirilməsi də bunu təsdiq edir.

Azərbaycanda da bu məsələyə dövlət səviyyəsində xüsusi önəm verilir. Xalqımızın ümummilli lideri Heydər Əliyev ahıl insanlara, onların problemlərinə hər zaman böyük diqqət və qayğı ilə yanaşmış, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilmiş, həmçinin ahılların sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə bir sıra normativ-hüquqi sənədlər qəbul edilmişdir. Ulu öndərin göstərişi ilə 1993-cü ildən başlayaraq ölkəmizdə hər il Beynəlxalq Ahıllar Gününün dövlət səviyyəsində qeyd olunması ahıl vətəndaşlara göstərilən diqqət və qayğının daha bir ifadəsidir.

Bu gün ahıl vətəndaşların sosial müdafiəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Ölkə başçısının 2006-cı il aprelin 17-də imzaladığı Sərəncam əsasında “Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı”nın təsdiq olunması ümummilli liderin bu sahədə müəyyənləşdirdiyi siyasətin davamlı xarakter almasına stimul yaratmışdır. Son 10 ildə ölkəmizdə yaşlı insanların sosial hüquqlarının təmin olunması, maddi və mənəvi tələbatlarının ödənilməsi istiqamətində həyata keçirilən tədbirlər daha intensiv xarakter almışdır. Bu müddət ərzində ahılların sosial müdafiəsini gücləndirmək, onlara dövlət qayğısını artırmaq məqsədilə pensiyaların orta aylıq məbləği 9,2 dəfə, müavinətlərin məbləği isə 3 dəfə artırılmışdır.

Cəmiyyət inkişaf etdikcə müasir dövrün tələbləri ilə səsləşən, ayrı-ayrı sosial məsələlərin həllinə yeni hüquqi imkanlar yaradan qanunlar qəbul edilir. 2011-ci il dekabrın 30-da qəbul edilmiş “Sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanunu xüsusi qayğıya ehtiyacı olan şəxslərin, o cümlədən ahılların sosial müdafiəsinin daha da gücləndirilməsinə hesablanmışdır.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da sosial-iqtisadi sahədə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ahıl vətəndaşlara göstərilən sosial xidmətlərin həcmi və keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlmiş, onların sağlam həyat tərzində yaşamaları, eyni zamanda cəmiyyətin həyatında fəal iştirakları üçün hərtərəfli şərait yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 30 may tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı”nın icrası ahıl şəxslərin sosial müdafiəsini gücləndirmişdir. Son 10 ildə muxtar respublikada yaşayan 1941-1945-ci illər müharibəsinin iştirakçısı olan 105 ahıl minik maşını ilə, habelə 1061 ahıl protez-ortopediya məmulatları və texniki reabilitasiya vasitələrilə təmin edilmişdir.

Muxtar respublikada yaşayan tənha ahılların hər biri haqqında məlumat bazası yaradılmış, onların sağlamlıqlarının qorunması və tibbi reabilitasiyası təmin olunmuşdur. 2014-cü ilin 9 ayı ərzində 21 ahıl Naxçıvan Əlillərin Bərpa Mərkəzində müalicə olunmuş, 8 ahıl respublikamızın sanatoriya və pansionatlarında müalicə olunmaları üçün göndərişlərlə təmin edilmiş, 31 ahıla səyyar protez-ortopediya xidməti göstərilmişdir. Hazırda tənha yaşayan və hərəkət qabiliyyəti məhdudlaşmış 524 ahıl vətəndaşa Əhalinin Sosial Müdafiəsi Mərkəzləri tərəfindən evlərində sosial-məişət xidməti göstərilir.

Ahıllar evinin fəaliyyətinin təşkili tənha ahıllara göstərilən dövlət qayğısının daha bir nümunəsidir. Hazırda 16 ahılın yaşadığı Ahıllar evində sakinlərin rahat yaşaması üçün hər cür məişət şəraiti yaradılıb. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində fəaliyyət göstərən Tibbi-Sosial Ekspert Komissiyasının həkimləri mütəmadi olaraq Ahıllar evinə gedərək sakinləri müayinədən keçirir, müalicələrinə köməklik göstərirlər. Ahıl vətəndaşlarımız əlamətdar günlərdə də yaddan çıxmır, Ahıllar evinin sakinləri ilə görüşlər təşkil olunur, onlara sovqatlar təqdim edilir.

Bu tədbirlərin davamı olaraq, Beynəlxalq Ahıllar Günü münasibətilə muxtar respublikamızda ahılların iştirakı ilə silsilə tədbirlər həyata keçirilmişdir. Belə ki, sosial xidmət göstərilən ahılların “Əshabi-Kəhf” Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksini ziyarəti, Ahıllar evi sakinlərinin Naxçıvan şəhərində gəzintiləri, tənha ahıllarla görüşlər təşkil edilmiş, ümumilikdə, 524 şəxsə sovqat təqdim olunmuşdur.

Ahılların əl işlərinin satışının təşkili onların məşğulluğunun təmin edilməsinə, maddi təminatlarının yaxşılaşmasına xidmət edir. Ahıllar arasında yaradıcılıq müsabiqələri, əl işlərindən ibarət sərgilər, stolüstü oyunlar üzrə yarışlar təşkil olunur. 100 yaşı tamam olanların yubileylərinin, habelə ahıl ailələrin evliliklərinin 50-ci, 60-cı ildönümlərinin qeyd olunması muxtar respublikada ahıl vətəndaşlara göstərilən davamlı dövlət qayğısından xəbər verir.

Yaşlı nəslə qayğı milli mənəviyyatımızın bir parçasıdır. Buna görə də ölkəmizdə ahıllara həmişə xüsusi diqqət göstərilir, onların sosial müdafiəsi gücləndirilir. Ahıl vətəndaşların cəmiyyətə inteqrasiyası istiqamətində həyata keçirilən bu tədbirlər onların sosial rifahının daha da yaxşılaşmasına xidmət edir.

**“Şərq qapısı”**

# Öz taleyini yaşayan sənətkar

## (Oçerk)

*Oxu tar, oxu tar,*
*Səni kim unudar?*

Görkəmli şairimiz Mikayıl Müşfiqin qələmindən süzülən bu sətirlər tar ifaçılığı ilə məşğul olanların dilinin əzbəridir. Bu qədim musiqi aləti insanın daxili aləminə güclü təsir imkanlarına malikdir. Bu səbəbdəndir ki, dünya mədəniyyətinin nadir incilərindən sayılan Azərbaycan muğamları tar kimi ecazkar musiqi aləti sayəsində sənət qələbəsi qazanıb, əbədi zirvə fəth edib. XIX əsrin ortalarında Sadıqcanın tarda yaratdıqlarını ölməz bəstəkarımız Üzeyir Hacıbəyov daha geniş areala çıxarıb, önündə yeni üfüqlər açıb. Bir vaxtlar sovet ideologiyasının qadağa qoyduğu tar onun qədrini bilən sənət vurğunlarımızın səylərilə “azadlığa çıxıb”, zaman-zaman Qurban Pirimov, Hacı Məmmədov, Əhsən Dadaşov, Mirzə Mansur Mansurov, Əhməd Bakıxanov, Bəhram Mansurov, Kamil Əhmədov kimi görkəmli sənətkarlar bu alətin nəyə qadir olduğunu göstəriblər. Beləcə, tar yaşayıb, bu gün də yaşayır və sabah da yaşayacaq. Bu əvəzolunmaz musiqi aləti ilə muxtar respublikamızda da öz sözünü deyən sənətkarlar az deyil. Onların fövqündə isə, sözsüz ki, muxtar respublikanın bütün musiqi ictimaiyyəti ilə yanaşı, həm də musiqisevərlərin yaxından tanıdığı, sənətinə yüksək qiymət verdiyi ustad tarzən Əkrəm Məmmədov dayanır. O Əkrəm Məmmədov ki, 7 səsin gücü ilə möcüzələr yaradıb. Həmin səsləri yeri gələndə sığallayıb, yeri gələndə o səslərə qəzəblənib də. Bununla sənətin ən yüksək zirvəsini fəth edib.

Əkrəm Məmmədov hələ gənc yaşlarından özünəməxsus ifa tərzi ilə ona qulaq asanları heyran qoyub. Respublikamızdan kənarda da tanınıb, sevilib. Vurduğu mizrabların tarda qopardığı səslə qanımızda, canımızda sənət sevgisi ilə yanaşı, torpaq, Vətən eşqi coşduran Əkrəm müəllimin ömrünün müdrik çağına – 70 yaşına qədəm qoyduğunu eşidəndə buna inanmadıq. Və inanmamaqda da əsasımız o idi ki, Əkrəm Məmmədov bu gün də gənclik coşqusu ilə öz sənətindədir. Redaksiyamıza dəvətimizi səmimiyyətlə qəbul etdi.

Kimdir Əkrəm Məmmədov? Bu sənətə onu kim gətirib? Şirin barmaqlarının sehri nədədir? Onunla söhbətdə bu və bu kimi suallara cavab axtardıq.

**Öz sözü:** – Tar çalmaq həm atamın arzusu idi, həm də özümün musiqiyə həvəsim var idi. Bu sənətin sirlərini isə mənə müəllimlərim öyrətdi. Ona görə də mən müəllimlərimi hər zaman ehtiramla xatırlayıram. İlk tar müəllimim Səfər Rəcəblini, mənə bu ixtisası, xüsusən də muğamlarımızın sirrini öyrədən mahir tarzən Kamil Əhmədovu, bəstəkarlardan Şəmsi Kərimovu, Dadaş Dadaşovu, Adil Gərayı, Səid Rüstəmovu, xüsusən də mənə daha çox qayğı göstərən görkəmli sənətkar Cahangir Cahangirovu həmişə böyük minnətdarlıqla yad edirəm.

Naxçıvanda musiqiçi kadrların yetişməsində ilk müəllimi Səfər Rəcəblinin çox böyük xidmətləri olduğunu dilə gətirən Əkrəm Məmmədov deyir ki, ona ilk dəfə Səfər müəllim gürcü xalq mahnıları olan “Suliko” və “Bəh-bəh”i öyrədib.

Həmişə deyərmiş ki, Əkrəmin fitri istedadı var. Əkrəm Məmmədov 7-ci sinifdə oxuyanda müəlliminin ümidini doğruldur. Bakıda məktəblilərin XIV ümumrespublika olimpiadasının birincisi olur. Sonra onu şəhər uşaq musiqi məktəbinə götürürlər. Beşillik musiqi məktəbini iki ilə bitirir. Burada onun not müəllimi Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, tanınmış musiqiçi, mərhum Rəşid Məmmədov olur. 1960-cı ildə uşaq musiqi məktəbləri şagirdlərinin respublika turunda böyük sənətkarlardan Əhməd Bakıxanov, Adil Gərayın və digər tanınmış musiqişünasların qarşısında Hacı Xanməmmədovun birinci konsertini ifa edir. İfasını çox bəyənirlər. Yenə də birinci olur. Yekun konsertində isə ona “Çahargah” çalmağı məsləhət görürlər. Bu ifası ilə o, münsiflər heyətinə tar dünyasına yeni səsin, yeni nəfəsin gəldiyini diktə edir. Həmin vaxt görkəmli tarzən Əhməd Bakıxanov onu evlərinə çağırır, yorulmadan Əkrəmin ifasına qulaq asır, dəyərli məsləhətlərini verir. Bu gün də Əkrəm müəllim etiraf edir ki, Əhməd müəllimin onun tarzən kimi yetişməsində çox böyük zəhməti olub.

Əkrəm müəllimdən professional səhnəyə nə vaxt qədəm qoyduğunu soruşuruq. Deyir ki, Asəf Zeynallı adına Musiqi Texnikumunun I kursunda oxuyarkən Azərbaycan Dövlət Filarmoniyasının nəzdində fəaliyyət göstərən Mahnı və Rəqs Ansamblında işləmək üçün müsabiqə elan olunduğunu eşidir. O da bu müsabiqəyə qatılır. Müsabiqədə Cahangir Cahangirov və Zakir Bağırovun qarşısında “Orta Mahur”u çalır. İfası çox bəyənilir və beləcə, onu işə götürürlər. Bu tanınmış ansamblda çalışdığı müddətdə istedadlı tarzən daim yaradıcılıq axtarışında olan gənc musiqiçi kimi özünü göstərə bilir.

Öz ustadlarını daim minnətdarlıqla xatırlayan Əkrəm Məmmədov bunu etiraf etməyi özünə borc bilir ki, sənətin zirvəsini fəth etməyimin səbəbini hələ gənc yaşlarımdan tez-tez korifey sənətkarlar arasında olmağımda görürəm. Bir musiqiçi kimi yetişməyimdə onların böyük rolu olub. O vaxt mənim cəmi 19 yaşım var idi. Bu yaşda belə bir şöhrətli kollektivdə çalışmaq heç də hamıya qismət olmayan böyük xoşbəxtlik idi. Kimlər yox idi orada?.. Şövkət Ələkbərova, Sara Qədimova, Zeynəb Xanlarova, Şahmar Kürdoğlu, Canəli Əkbərov, İldırım Həsənov... belə desək, böyük bir məktəb. Mən bu məktəbdə çalışan o görkəmli sənətkarlarla respublikamızın, demək olar ki, bütün bölgələrini gəzmişəm. Keçmiş SSRİ-nin bir sıra şəhərlərində, həmçinin xarici ölkələrdə onları müşayiət etmişəm. Həm də solo çıxışlarımla musiqimizin, xüsusən də muğamlarımızın əvəzolunmazlığını çatdırmağa səy göstərmişəm.

Bizim üçün maraqlı olan bir suala da Əkrəm Məmmədov aydınlıq gətirir:

***– Ən nüfuzlu sənət məbədindən ayrılıb Naxçıvana qayıtmağınızın səbəbi nə idi?***

– Bəlkə də, dediklərimə bəziləri inanmayacaq. Səbəb bu idi ki, Naxçıvansız qala bilmədim, darıxdım. Bu torpağın cazibəsi çəkib gətirdi məni. Həmin dövrdə, yəni 70-ci illərdə respublikamızın ucqarlarında belə, mədəniyyət, incəsənət inkişaf etdirilirdi. Mən də o zaman Naxçıvan Dövlət “Araz” Mahnı və Rəqs Ansamblına gəldim. 27 il burada bədii rəhbər işlədim. Elə ilk ildə yaratdığım “Könül” xalq çalğı alətləri ansamblı nəinki Naxçıvanda, paytaxtımız Bakıda belə tanındı. Sonra Naxçıvan Musiqi Texnikumu yaradıldı. Yeri gəlmişkən deyim ki, bilavasitə ümummilli lider Heydər Əliyevin qayğısı ilə yaradılan bu texnikum Naxçıvanda musiqinin inkişafında çox böyük rol oynayıb. Bu gün də həmin təhsil ocağı Naxçıvanda musiqi mədəniyyətinin milli zəmin əsasında inkişafına töhfələrini verir. Kollecə göstərilən dövlət qayğısı yüksək səviyyədə olduğundan qazanılan uğurlar da ilbəil artır.

Əkrəm Məmmədov bu təhsil ocağında pedaqoji fəaliyyətini davam etdirir, sənətinin sirlərini gənclərə öyrədir. Deyir ki, milli musiqimiz, xüsusən də muğamlarımız bizim misilsiz xəzinəmiz, ulularımızın nəinki xalqımıza, millətimizə, bəşəriyyətə bəxş etdiyi əbədiyaşar töhfədir. Bu xəzinənin qədrini bilmək, sevmək, qorumaq, malik olduğu möhtəşəmlikdə gələcək nəslə çatdırmaq üçün onu öyrənmək və öyrətmək vətəndaşlıq borcumuzdur. Mən də ömrüm boyu bu borcu layiqincə yerinə yetirməyə çalışmışam. “Araz” Mahnı və Rəqs Ansamblında işləməklə yanaşı, uşaq musiqi məktəblərində, sonra isə texnikumda tarı tədris etmişəm. Eyni zamanda dirijorluq, orkestrləşmə, instrumentallaşdırma, partitura oxunması və misilsiz xəzinə olan muğamatdan dərs demişəm. Muğam bizim qan yaddaşımızı yaşadan sərvətdir. Onun hər şöbəsində, ahəngində xalqımızın sevinci, kədəri yaşamaqdadır. Ömrümün on beş ili elə musiqi texnikumunda bu işlə bağlı olub. Tələbələrim də hər zaman başucalığı gətirib mənə. Demək olar ki, respublika və beynəlxalq miqyaslı müsabiqələrdə həmişə birinci olublar. İndi tanınmış tarzənlər – Tariyel Abbasov, Abdulla Abdullayev, Zeynalabdin Babayev, İmamqulu Əhmədov, İlqar Hüseynov, İsmayıl Mürsəlov və başqaları mənim iftixar duyduğum yetirmələrimdir.

Bu gün xalq musiqisinə münasibət barədə ustad tarzənin fikirlərini öyrənmək istəyirik. Bir qədər duruxur, sonra söhbətinə davam edir:

– Musiqimiz də yaradıcı istiqamətdə yeniləşməlidir. Çünki bu qiymətli incimiz dünya mədəniyyətində belə seçilib-sevilir. İndi konsert salonlarını, ekran və efiri bürüyən səsli-küylü şouların, insan ruhunu əzən gurultuların, yad musiqilərin arasında öz musiqimiz eşidiləndə sanki qaranlıqda Günəş doğur, varlığımız titrəyir, sinirlərimiz dincəlir: xüsusən də YUNESKO tərəfindən qorunan muğamlarımız səslənəndə. Gərək onun saflığını, müqəddəsliyini qoruyaq. Amma bu yeniləşmədə milli kolorit ehtiva olunmalıdır. Yenilik o demək deyil ki, musiqini əvvəlki tempindən çıxarıb yeni intonasiyada təqdim edəsən. Təzə köhnədən gözəl olmalıdır. Əsl sənətin konkret meyarı da budur. Mən də bəstəkarlıq yaradıcılığı ilə məşğulam və hər bəstəmə bu aspektdən yanaşmışam. 1983-cü ildə musiqi texnikumunda “Əcəmi naxışları” adlı ansambl yaratmışdım. Sırf milli musiqi alətlərindən ibarət olan bu ansambl böyük əks-səda doğurdu. Görkəmli dirijor Niyazi çox yüksək qiymətləndirdi. Bu haqda mətbuatda xoş



sözlər deyildi. Sonra Naxçıvanda yaratdığım milli və bəşəri çalğı alətlərindən ibarət ansambl da musiqi ictimaiyyəti tərəfindən rəğbətlə qarşılandı. O ki qaldı musiqimizə yad təsirlərə, ona heç bir bayağılıq yapışmaz. Təməli ölməz bəstəkarımız Üzeyir bəy tərəfindən qoyulan, böyük musiqiçilər Q.Qarayev, F.Əmirov, A.Məlikov, C.Hacıyev və başqaları tərəfindən inkişaf etdirilən musiqi sənətimiz təməlindən heç zaman ayrılmaz. Mən də bir sıra xalq mahnılarını işləmişəm. Amma çalışmışam ki, onların milli ruhuna xələl gətirməyim. Buna nə dərəcədə nail olduğumu musiqiçilər deyə bilər.

Əkrəm müəllim Naxçıvanda yaşayıb-yaradan musiqi tədqiqatçılarından gileyini gizlətmir: – Naxçıvanda qədim musiqi mədəniyyəti, zəngin musiqi tarixi formalaşıb. Təbii ki, bu mədəniyyəti yaradan, tarixi formalaşdıran musiqiçilər olub. Nə üçün onların həyat və yaradıcılığı tədqiq edilmir? Əgər bu gün onları tədqiq etməsək, sabah gec olacaq.

Gözəl, orijinal bəstələri ilə tanınan Əkrəm Məmmədov bu gün də gənclik eşqilə yaradıcılıqla məşğuldur. Müxtəlif dövrlərdə mahnıları müğənnilərimiz tərəfindən oxunub. Bundan başqa, mahnı və rəqs ansamblı üçün “Bayram şənliyi” və “Naxçıvan” vokal xoreoqrafik süitasını, Əliyar Yusiflinin “Gözüm yollarda qaldı”, Həmid Arzulunun “Əlincə qalası” dramlarına, İsgəndər Coşqunun Mikayıl Müşfiq haqqında səhnə əsərinə musiqiləri də Əkrəm Məmmədov yazıb. “Azərbaycan muğamları”, “Tar üçün qamma və arpedçiolar” və “Tar üçün etüdlər”, 80-ə yaxın yallının toplandığı “Şərur el yallıları” adlı dərs vəsaitlərinin müəllifidir. Naxçıvanın bugünkü inkişafına, yüksəlişinə ithaf etdiyi bu kitablarla musiqimizin öyrənilməsinə, gələcək nəsillərə çatdırılmasına töhfələrini verib.

*Hər sənətkar öz taleyini yaşadığı kimi, Əkrəm Məmmədov da Tanrının qismətindən xeyli razıdır. Əməkdar mədəniyyət işçisi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, tar dünyasının sevimlisi bu gün 70 yaşını qeyd edir. Gün o gün olsun ki, 100 yaşını qeyd edək, Əkrəm müəllim.*

**Muxtar MƏMMƏDOV**

# Naxçıvanlı rəssam Beynəlxalq İncəsənət Festivalında birinci mükafata layiq görülmüşdür



Ötən 7 ildə festivalda 40 ölkədən 4500-dən çox rəssam və rəsm qalereyası iştirak etmişdir. Bu günə qədər 2 milyondan artıq tamaşaçının izlədiyi festivalda 200-dən çox rəssam müxtəlif nominasiyalar üzrə mükafatlandırılmışdır.

Bu il sentyabrın 16-dan 21-dək Portuqaliyanın paytaxtı Lissabon şəhərindəki Milli Dəniz Muzeyində VIII “VERA” Beynəlxalq İncəsənət Festivalı keçirilmişdir. Festivalda 16 ölkədən, ümumilikdə, 300-dən çox rəssam iştirak etmişdir. Azərbaycanı bu festivalda Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının əməkdar rəssamı Ülviyyə Həmzəyeva, eləcə də rəssamlardan Sakit Məmmədov, Fərid Ələkbərov və Bakı şəhərində fəaliyyət göstərən “Şah Gallery” rəsm qalereyası təmsil etmişlər.

“VERA” Beynəlxalq Müasir İncəsənət Festivalı “Mədəniyyətə və Müasir İncəsənətin İnkişafına Dəstək Moskva İctimai Fondu” tərəfindən 2004-cü ildə təsis edilmişdir.

Festival çərçivəsində çoxsaylı mühazirələr, konfranslar, seminarlar, dəyirmi masalar və dünyanın məşhur rəssamları tərəfindən ustad dərslər keçilmişdir. Festivalın keçirildiyi müddətdə beynəlxalq münsiflər heyəti dəfələrlə sərgilərə baxmış, hər sahə üzrə ən yaxşı əsərləri dəyərləndirmişlər. Sonda rəsm, qrafika, heykəltəraşlıq, memarlıq layihəsi, muzey işi, qalereya işi və digər bu kimi 17 müxtəlif nominasiya üzrə təsis edilmiş mükafatlar qaliblərə təqdim edilmişdir. Mükafatlardan ikisi Azərbaycan rəssamlarına verilmişdir. Əməkdar rəssam Sakit Məmmədova “Forma və Məzmunda Estetika” nominasiyası, Naxçıvan Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının əməkdar rəssamı Ülviyyə Həmzəyevaya isə “Unikal Milli Orijinallıq” nominasiyası üzrə birincilik mükafatı verilmişdir.

Qeyd edək ki, Ülviyyə Həmzəyeva festivalda “Alis möcüzələr ölkəsində”, “Böri”, “Möminə xatın”, “Şahmar”, “Mistik Misir”, “Nər”, “Xəzinə küpü”, “Arzular qayığı” əsərləri ilə iştirak etmişdir. Rəssamın əsərləri avropalı sənətsevərlər tərəfindən böyük maraqla qarşılanmışdır.

**“Şərq qapısı”**

*Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ekoloji Tərbiyə Mərkəzində tədbir keçirilib.*

# Məhəmməd Tağı Sidqinin 160 illik yubileyi qeyd olunub

Tədbiri giriş sözü ilə mərkəzin direktoru Bahadur Fərəcov açaraq qeyd edib ki, Naxçıvanın böyük alim və mütəfəkkirləri öz yaradıcılıqları ilə elə zəngin bir irs qoyublar ki, bu gün də onların irsi elmimizin, ədəbiyyat və mədəniyyətimizin inkişafında mühüm əhəmiyyət kəsb etməkdədir. Məhəmməd Tağı Sidqi də maarifçi-realist ədəbiyyatımızın yaradıcılarından biri kimi tanınıb. Sidqi görkəmli bir ədəbiyyatşünas alim, mahir pedaqoq olaraq təlim və tərbiyəyə, dilimizə, ədəbiyyatımıza dair qiymətli əsərlər yazıb. Böyük pedaqoq, istedadlı şair, xalq müəllimi M.T.Sidqinin əsərləri öz dövründə olduğu kimi, bu gün də aktuallığını qorumaqdadır.

Mərkəzin əməkdaşlarından Pərvanə Vəliyeva, Zöhrə Nəbiyeva, Vüsalə Qasımova Sidqinin həyat və yaradıcılığı, onun elmi, pedaqoji fəaliyyəti haqqında məruzələrlə çıxışlar ediblər.

Sonda mərkəzin dərnək üzvləri Məhəmməd Tağı Sidqinin şeirlərindən parçalar söyləyiblər.

**Sona MİRZƏYEVA**

## Mədəniyyət müəssisələrində aşkar olunan nöqsanlar aradan qaldırılır

***Muxtar respublikada mədəniyyətin inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Son illər şəhər və rayon mərkəzlərində, hətta ən ucqar kənd yaşayış məntəqələrində belə, mədəniyyət müəssisələri üçün müasir iş şəraiti yaradılmış, istifadəyə verilən yeni kənd mərkəzlərində mədəniyyət evləri, klub və kitabxanalar üçün otaqlar ayrılmışdır. Həmçinin lazımi avadanlıq və pulsuz kitablarla təminat, müasir zalların istifadəyə verilməsi istənilən mədəni-kütləvi tədbirin keçirilməsinə imkan verir. Bir sözlə, bu sahədə göstərilən xidmətin günün tələbləri səviyyəsində qurulması üçün muxtar respublikanın rayon mərkəzlərində və kəndlərdə hərtərəfli şərait mövcuddur.***

Mədəniyyət müəssisələrində yaradılan şəraitdən düzgün istifadə olunması isə kollektivlər qarşısında duran əsas vəzifələrdir. “Şərq qapısı” qəzetinin əməkdaşları Şərur, Babək, Culfa, Kəngərli və Sədərək rayonlarının mədəniyyət müəssisələrinin fəaliyyəti ilə bağlı jurnalist araşdırması aparmış və qəzetin 2014-cü il 25 sentyabr tarixli, 183 saylı nömrəsində bununla bağlı “Muxtar respublikada mədəniyyətin inkişafına qayğı yüksək səviyyədədir. Bəs bu sahədə çalışanların fəaliyyəti necə?” adlı məqalə dərc olunmuşdu. Məqalədə qeyd olunan nöqsanlar yerlərdə araşdırılmış, işinin öhdəsindən gəlməyən və intizamsızlığa yol verən işçilər barədə ciddi tədbirlər görülmüşdür.

Məqalədə qeyd olunurdu ki, Şərur rayonunun Zeyvə kənd kitabxanasında oxucularla əlaqə zəif təşkil edilmiş, qeydiyyat kitabı yoxdur. Bununla əlaqədar kitabxananın müdiri Günel Şirəliyevaya xəbərdarlıq olunmuş, oxucularla işin aparılmasına metodik köməklik göstərilmişdir. Qeydiyyat kitabı hazırlanaraq möhürlənmiş və kitabxananın istifadəsinə verilmişdir. Zeyvə kənd klubunun bağlı olması faktı ilə bağlı aparılan araşdırma zamanı isə məlum olmuşdur ki, klubun müdiri Cəmilə Rzayeva 2014-cü ilin sentyabr ayında məzuniyyətdə olmuşdur. Araşdırma aparılan zaman isə mədəni təşkilatçı Niyazi Fərəcov icazəsiz klubu boş qoyaraq rayonda yerləşən tarixi abidələrin fotoşəklini çəkməyə getmişdir. Bu səbəbdən də ona xəbərdarlıq olunmuşdur.

Məqalədə Babək rayonunun Şəkərabad kənd klubunun və kitabxanasının qapılarının da bağlı olduğu haqqında məlumat verilmişdir. Bununla bağlı müvafiq tədbir görülmüş, kitabxananın müdiri Ramilə Sadiqova üzrsüz səbəbdən işdə olmadığı üçün tutduğu vəzifədən azad edilmişdir. Yarımca kənd kitabxanası və mədəniyyət evində də eyni fakt aşkarlanmışdır. Məlum olmuşdur ki, kitabxananın müdiri Zivər Nağıyeva üzrlü səbəbdən qısa müddətdə işdə olmamışdır. İcazə almadan iş yerini tərk edən kitabxanaçı Vəfa Nağıyeva isə tutduğu vəzifədən azad edilmişdir. Mədəniyyət evinin bədii rəhbəri Abbas Mahmudov və dalandar Elvin Aslanov iməcilikdə iştirak etdiyindən, mədəni təşkilatçı Züleyxa Həsənova və metodist Sahilə Məmmədovaya üzrsüz səbəbdən işdə olmadıqlarına görə xəbərdarlıq olunmuşdur.

Rayonun digər kəndlərində də qeyd olunmuş nöqsanların aradan qaldırılması istiqamətində işlər görülmüşdür. Məmmədrzadizə kənd icra nümayəndəliyinin kitabxana və klubunun bağlı olmasının səbəbi icra nümayəndəsi, müavin, baş mühasib vəzifələrinin vakant olması, kitabxanaçı Kəmalə İbrahimova və klubun müdiri Qönçə Məmmədovanın isə üzrsüz səbəbdən işdə olmaması idi. Görülən tədbirlər nəticəsində onların hər ikisi tutduğu vəzifədən azad edilmişdir. Həmçinin məlum olmuşdur ki, klubun bədii rəhbəri Məlahət Bağırova 2014-cü il 1 sentyabr – 9 oktyabr tarixləri arasında məzuniyyətdədir.

Rayonun Məzrə kənd kitabxanasının müdiri Gülxar Həsənova da heç bir üzrlü səbəb olmadan iş yerində olmamışdır. Onun bu səhvə ilk dəfə yol verməsi nəzərə alınaraq xəbərdarlıq edilmişdir. Nəzərabad kənd klubu ştat vahidi verilmədiyindən fəaliyyətini dayandırmışdır. Kəndin kitabxana müdiri Leyla Haqverdiyeva üzrsüz səbəbdən işdə olmadığı üçün vəzifəsindən azad edilmiş, kitabxana işçisi Rahilə Tumasova isə iş vaxtının saat 13[00]-də bitməsi səbəbindən işdə olmamışdır. Didivar kənd icra nümayəndəliyinin kitabxana və mədəniyyət evinin bağlı olması ilə əlaqədar faktlar araşdırılarkən məlum olmuşdur ki, kənd icra nümayəndəsi və müavin işlə əlaqədar başqa ərazidə olmuşlar. Kitabxana müdiri Gülbəniz Əliyeva üzrsüz səbəbdən işdə olmadığı üçün vəzifəsindən azad edilmişdir. Kitabxananın və mədəniyyət evinin digər əməkdaşlarına isə müvafiq xəbərdarlıqlar olunmuşdur.

“Şərq qapısı” qəzetinin qeyd olunan məqaləsində Culfa rayonunun Ərəzin kənd mədəniyyət evinin 5 əməkdaşından 3-nün işdə olmaması barədə məlumat verilmişdir. Məsələ araşdırılarkən aydın olmuşdur ki, mədəniyyət evinin bədii rəhbəri Arif Kazımov həmin müddətdə onlara aid sahədə iməcilikdə olmuş, metodist Elnarə İbrahimova isə xadimə Aidə İbrahimova isə üzrlü səbəbdən işdə olmamışlar. İnzibati ərazi dairəsi üzrə nümayəndəliyin müvafiq arayışı da məlumata əlavə olunmuşdur. Kənd mədəniyyət evinin müdiri Mahmud Zeynalovun Tovuz Maliyyə-İqtisad Kollecinin (qiyabi) tələbəsi olmasına isə belə aydınlıq gətirilmişdir ki, kənddə ixtisaslı kadr olmadığından o, 2013-cü il tarixdən müdir vəzifəsinə müvəqqəti olaraq təyin olunmuşdur. Sənədləşmə işinin düzgün qurulmaması və oxucularla əlaqə zəif olduğu üçün kənd kitabxanasının müdiri Müşkinaz Qafarovaya töhmət elan olunmuş, qeyd olunan nöqsanların qısa müddətdə aradan qaldırılması üçün vaxt verilmişdir. Rayondakı Əbrəqunus kənd kitabxanasının da işi araşdırılmışdır. İxtisaslı kadr olmadığından ixtisasca tibb işçisi olan Sakinə Qasımovanın kənd kitabxanasının müdiri işləməsi aşkar olunmuşdur. Yazıda qeyd edilir ki, kənd mədəniyyət evində bədii rəhbər və xadimədən başqa heç kəsin iş yerində olmaması məlum olmuşdur. Buna səbəb müdir Rəsmiyyə Məmmədovanın səhhəti ilə əlaqədar kənd həkim ambulatoriyasında müayinə olunması, metodist Sakinə Məhərrəmovanın isə növbəti əmək məzuniyyətinə çıxması və kütləvi işçi Aylar Əliyevanın isə xəstə olması idi.

Saltaq kənd kitabxanasının müdiri Roza Qurbanova üzrlü səbəbdən işdə olmamışdır. Əlincə kənd klubu və kitabxana müdirləri Sevil Süleymanova və Xuraman Məmmədova həmin gün üzrsüz səbəbdən işdə olmadıqlarına görə tutduqları vəzifələrdən azad edilmişlər. Xanəgah kənd mədəniyyət evinin direktoru Bayram Sadiqov isə üzrlü səbəbdən işdə olmamışdır. Ümumilikdə isə kənd mədəniyyət müəssisələrinin fəaliyyətinə zəif nəzarət etdiklərinə görə Ərəzin, Saltaq, Əlincə, Əbrəqunus və Xanəgah kənd inzibati ərazi dairəsi üzrə nümayəndələrə Culfa Rayon İcra Hakimiyyəti başçısının müvafiq əmri ilə töhmət verilmiş, rayon Mədəniyyət və Turizm Şöbəsinin müdirinə isə məzuniyyətdə olduğu üçün şifahi xəbərdarlıq olunmuşdur.

Jurnalist araşdırması zamanı Kəngərli rayonundakı bir sıra mədəniyyət müəssisələrinin də qapısının bağlı olduğu aşkar edilmişdir. İşdə olmadıqlarına görə Xok kənd klubunun müdiri Elnur İsayev və mədəni təşkilatçı Rafiq Muradov işdən azad edilmiş, Yurdçu kənd kitabxanasının müdiri vəzifəsinə müvəqqəti təyin olunmuş rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin oxu zal müdiri Güləbətin Quliyevaya töhmət verilmişdir. Bundan əlavə, Böyükdüz kənd mədəniyyət evinin direktoru İlham Məmmədov və kitabxana müdiri Şəfiqə Əliyeva, Yeni Kərki kənd klubunun mədəni təşkilatçısı Sərvanə Cəfərova və kitabxana müdiri Afət Ələkbərovaya xidmətin zəif təşkili ilə əlaqədar xəbərdarlıq olunmuş, işin günün tələbləri səviyyəsində qurulması üçün müvafiq tapşırıqlar verilmişdir.

Sədərək rayonunun Qaraağac kənd klubu və kitabxanasında da işlər günün tələbləri səviyyəsində qurulmadığına görə kitabxananın böyük kitabxanaçısı Günel Sadiqova vəzifəsindən azad olunmuş, kənd klubunun müdiri Oruc Abbasova isə xəbərdarlıq edilmiş, qeyd olunan nöqsanların qısa zamanda aradan qaldırılması tapşırılmışdır.

“Şərq qapısı” qəzetinin çıxışından sonra nöqsanların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər zamanı aydın olmuşdur ki, mədəniyyət müəssisələri, xüsusilə kitabxanalarla ictimaiyyət arasında əlaqələrin qurulmasında müəyyən nöqsanlar vardır. Bu, istər ixtisaslı kadr çatışmazlığından, istərsə də işçilərin öz vəzifələrini bilməmələrindən və bu səbəbdən də işlərin günün tələbləri səviyyəsində qurulmamasından irəli gəlir. Ona görə də şəhər, rayon və kənd kitabxanalarında ayda bir dəfə “Kitabxana günləri”nin keçirilməsi, əlamətdar tarixi günlərlə, görkəmli şəxsiyyətlərin yubileyləri ilə bağlı mədəniyyət evlərində və klublarda tədbirlərin təşkil olunması, əhalinin, xüsusilə gənclərin bu sahəyə marağının artırılması diqqət mərkəzində saxlanılacaq, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi və onun tabe strukturları qeyd olunan nöqsanları bir daha araşdıraraq müvafiq tədbirlər görəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbində ixtisaslı kadrlar hazırlanır

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2014-cü il 20 iyun tarixli Sərəncamına əsasən, Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbi Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Bu da məktəbdə tədrisin keyfiyyətinin yüksəldilməsinə, təlimlərin səmərəli təşkili və müdavimlərin yüksək səviyyədə hazırlanmasına geniş imkanlar açmışdır.

Məktəbdə yol hərəkəti qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrinin idarəetmə məsələləri üzrə təcrübi təlimlər keçilir. Bunun üçün 8 avtomobildən, minik və yük avtomobillərinin bazasında yığılmış 2 avtotrenajordan istifadə olunur. Təlim kursu başa çatdıqdan sonra müdavimlər bilik, bacarıq və vərdişlərinin, eləcə də sürücülük hazırlıqlarının səviyyəsini müəyyən etmək üçün imtahan verirlər.

2014-cü ilin üçüncü rübündə də məktəb öz fəaliyyətini günün tələbləri səviyyəsində qurmuşdur. Həmin müddətdə məktəbdə 4-ü qadınlardan ibarət olmaqla, 28 qrup açılmış, qruplarda 740 müdavim təhsil almışdır. Ötən 3 ayda məktəbdə təhsili başa vuran 765 müdavimə şəhadətnamə verilmişdir. Həmin müdavimlərdən 120-si qadınlar, 180-i isə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən göndərilən gənclər olmuşdur. Davamiyyət və mənimsəmə faizi aşağı olduğuna görə 15 müdavim məktəbdən xaric edilmişdir.

Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbi peşəkar sürücülərin və ixtisaslı kadrların hazırlanması sahəsindəki fəaliyyətini davam etdirir.

**“Şərq qapısı”**

## Ahıllar evi sakinlərinin Naxçıvan şəhərinə gəzintiləri təşkil edilib



***Muxtar respublikamızda ahıl vətəndaşların sağlam həyat tərzində yaşamaları, onların cəmiyyətdə fəal iştirakı üçün hərtərəfli şərait yaradılıb.***

Tənha ahıllara göstərilən dövlət qayğısının bir nümunəsi olan Ahıllar evində sakinlərin rahat yaşamaları üçün hər cür şərait mövcuddur. Həmçinin ahılların asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə müxtəlif tədbirlər həyata keçirilir.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq, 1 oktyabr – Beynəlxalq Ahıllar Günü münasibətilə sentyabrın 29-da Ahıllar evi sakinlərinin Naxçıvan şəhərinə gəzintisi təşkil edilib. Tədbir iştirakçıları “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində, Naxçıvan Dövlət Xalça Muzeyində, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyində və Açıq Səma Altında Muzeydə olub, həmçinin Möminə xatın türbəsinə baxıblar.

Gəzinti iştirakçılarına tarixi abidələrimiz, muzeylərdə tariximizi, mədəniyyətimizi, milli dəyərlərimizi özündə əks etdirən eksponatlar haqqında ətraflı məlumat verilib və onları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, gəzinti iştirakçıları üçün nəqliyyat vasitəsi ayrılıb, nahar və çay fasiləsi təşkil olunub.

Tədbir ahıllarda xoş ovqat yaradıb. Onlar göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

## Muxtar respublikanın ən uzunömürlü sakini ilə görüş

***Muxtar respublikamızda yaşayan uzunömürlü insanların sosial problemlərinin həlli, onların həyat səviyyələrinin yüksəldilməsi, habelə yubiley yaşlarının, uzunömürlü ailələrin “gümüş“, “qızıl“ və “brilyant“ toylarının qeyd olunması istiqamətində davamlı tədbirlər həyata keçirilir.***

1 oktyabr – Beynəlxalq Ahıllar Günü münasibətilə sentyabrın 30-da muxtar respublikanın ən uzunömürlü, 116 yaşlı Şərur rayon sakini Hümbətova Qönçə Hüseynqulu qızı ilə görüşün keçirilməsi də bu istiqamətdə həyata keçirilən tədbirlərin davamıdır. Qönçə Hümbətova 1 iyul 1898-ci ildə Vedi rayonunun Qədirli kəndində anadan olub. 1905-ci ildə ermənilərin Qədirli kəndini yandırmasından sonra anası ilə Naxçıvana gələrək burada məskunlaşıblar. Üç əsrə şahidlik edən Qönçə Hümbətovanın bir oğlu, 4 nəvəsi, 8 nəticəsi, 3 kötücəsi var.

Görüşdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidmətinin, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Şərur Rayon İcra Hakimiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları çıxış edərək bildiriblər ki, muxtar respublikamızda uzunömürlü insanların sosial vəziyyətinin yaxşılaşdırılması daim dövlətimizin diqqət mərkəzindədir. Onlara müxtəlif sosial xidmətlər göstərilir, sağlamlıqları qayğısına qalınır, onların maddi və mənəvi tələbatlarının ödənilməsi istiqamətində tədbirlər həyata keçirilir. Mütəmadi olaraq onlara evlərində baş çəkilir, sosial problemləri yerindəcə həll olunur.

Qönçə Hümbətova ona göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Sonda muxtar respublikanın ən yaşlı sakininə hədiyyələr təqdim olunub.

Məlumat üçün qeyd edək ki, hazırda muxtar respublikada yaşı yüz və yüzdən yuxarı olan 24 ahıl vətəndaş yaşayır.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Naxçıvan şəhərinin Qaraxanbəyli kənd sakini Bağırov Ramis Məmmədxan oğlunun adına olan evin 25555 inventar nömrəli texniki pasportu və 0024398 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 837